**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 2, maddə 292, 10, maddə 1905; 2018, 2, maddə 351, 4, maddə 817, 11, maddə 2432, 12 (II kitab), maddə 2749; 2019, 3, maddə 517; 2020, 2, maddələr 183, 199, 5, maddə 650, 8, maddə 1108; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 avqust tarixli 243 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”na 1 nömrəli əlavə - “İxtisas qrupları və ixtisaslar”da aşağıdakı dəyişikliklər edilsin:

1. II ixtisas qrupu sütununda “3. Beynəlxalq münasibətlər” və “4. Regionşünaslıq (regionlar üzrə)” hissələri ləğv edilsin.

2. III ixtisas qrupu sütununa aşağıdakı məzmunda 25-26-cı hissələr əlavə edilsin:

“25. Beynəlxalq münasibətlər

26. Regionşünaslıq (regionlar üzrə)”.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 9 sentyabr 2021-ci il
252